PARADIGMA, Xüsusi buraxılış, 2025, səh.22-30
https://doi.org/10.30546/30015.2025.4.016

# REPRESSİYA QURBANI OLMUŞ YAZIÇI VƏ ŞAİRLƏR HAQQINDA

**A.Ə. Əsədova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: aysunesedova21@icloud.com

**Xülasə.** 1920-ci illərdə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ölkədə geniş repressiya tədbirləri həyata keçirildi. Bu dövrdə müxtəlif sahələrdə fəaliyyət göstərən şəxslər, xüsusilə mədəniyyət və ədəbiyyat sahəsində çalışanlar repressiyanın hədəfinə çevrildi. Yazıçılar və şairlər arasında çoxları həbs edildi, sürgün olundu və ya güllələndi ki, bu da Azərbaycanın mədəni həyatına ciddi zərbə vurdu və ədəbiyyatın inkişafını əngəllədi. Sovet hakimiyyəti repressiyaları əsasən siyasi və ideoloji səbəblərə görə həyata keçirilirdi. Yazıçılar və şairlər milli düşüncələrini ifadə etdikdə, xalqın şüurunu gücləndirən əsərlər yaratdıqda və ya Sovet ideologiyasına uyğun olmayan mövzulara toxunduqda hədəf alınırdılar. Bu dövrdə mətbuatda və ədəbiyyatda söz azadlığı ciddi şəkildə məhdudlaşdırılmışdı.

**Açar sözlər:** Repressiya, Sovet dövrü, Mikayıl Müşfiq, sürgün, həbs, tarixi faciə.

## Giriş

1920-ci il aprelin 28-dən başlayaraq Azərbaycan Respublikasında yüz minlərlə insan əsassız səbəblərdən, düşüncə tərzinə və fəalliyyətinə görə repressiyalara məruz qalmışdır. XX əsrin 20-ci illərində kütləvi qırğınlar həyata keçirilsə də, repressiyaların zirvəsi, kuliminasiya nöqtəsi 1937-ci il qəbul olunur.

Hakimiyyətdə sarsıntılar başladıqca Rusiya daxilindəki milli ziyalılarımız əsərlərində milli hiss və düşüncələrini göstərməyə başlamışdılar. Bu əsərlərdə hürriyyət və azadlıq fikirləri öz əksini tapırdı. Rusiya daxildə inkişaf edən müstəqillik düşüncələrinin qarşısını almaq üçün təzyiq və təqibləri artırıb, qəzetlərin fəaliyyətini dayandırıb, milli ziyalılarımıza zərbə göstərirdilər. Bütün bunlara baxmayaraq ziyalılarımızın düşüncələrinin qarşısını almaq mümkün deyildi. Ziyalılarımız açıq-aşkar Azərbaycanın müstəqillik ideyasını qaldırmır, Sovet rejiminə qarşı çıxa bilmirdi. Gizli partiyalar yaradıb öz düşüncələrini elmi əsərlərində sətir altı işıqlandırırdılar.

Repressiyalar kütləvilik təşkil edən sahələrdə daha çox tətbiq olunmuşdur. Cəmiyyətin tələbləri nəzərə alınmış və buna zidd olanlar ittiham edilmişdir. Bu siyasətdə əsas məqsəd yeni nəsli Sovet ədəbiyyatı dünyasına daha da birləşdirmək olmuşdur. Repressiyalar sadəcə ədəbiyyatda özünü göstərməmiş, eyni zamanda islama da ciddi zərbələr vurulmuşdur. Dini dəyərlərin, adət-ənənələrin aradan qaldırılması, din xadimləri uzaqlaşdırılmış, mollalar həbs edilmişdir. Xalqı dünənindən, keçmişindən qoparmaq əsas ideologiya idi.

Ədəbiyyat sahəsində edilən "təmizləmələr" nəticəsində sənət adamları "vətən xaini", "pantürkist", "panislamist" kimi göstərilmişdir. Bəziləri repressiya qurbanı olmuş, bir qism isə ailəsi ilə bərabər sürgünə məruz qalmışdır. Aparılan mübarizə yolu diktator şəklində olmuşdur. Qırğınlarda tarixi düşmənçiliklərini davam etdirən ermənilərin də rolu olmuşdur. İrs-varis əlaqələrimizi qırmağa çalışmışlar, lakin Azərbaycan yenidən müstəqilliyini əldə edərək bir daha göstərdi ki, xalqımızın daxilində azadlıq ideyaları, irs-varis əlaqələrimiz məhv edilə bilməmişdir.

**"Repressiya illərində ölənlərin statistik göstəriciləri"**




**Mikayıl Müşfiq.** 1930-cu illərdən etibarən Moskva ədəbiyyat dairələri özlərinə "carçılar" tapmaq yoluna düşür və 1937-ci ilin qanlı repressiyaları Azərbaycan ədəbi mühitini də əhatə edir. Oktyabr ayında başlayan genişmiqyaslı həbs dalğası yazıçıları qorxu içində buraxır və xofun daha amansız mərhələsini açır. Yazıçılar İttifaqının təxminən 60 üzvündən 27-si repressiyaya məruz qalır, nəticədə Azərbaycan ədəbiyyatı və mədəniyyətinin tanınmış simaları itirilir. Mikayıl Müşfiqin məşhur kəlamı isə bu faciəni insanın ruhunda dərindən hiss etdirir. Saf qəlbli şair bu hadisələrdən çox təsirlənir. Növbəti yazıçılar toplantısında Müşfiq "əksinqilabçı" kimi göstərilir. 1937-ci il iyunun 4-də o, evindən həbs olunur və əksinqilabçı milli təşkilata üzv olmaq və sovet hakimiyyətinə qarşı silahlı hərəkətlər hazırlamaqla günahlandırılır. Müşfiqin od saçan şeirləri ulu Hüseyn Cavidin vaxtı ilə dediyi "Müşfiq bir oddur ki, özü-özünü yandıracaq" ifadəsinə qısqanclıqla yanaşanların hökmü idi [1, s.39].

Həbs edilməmişdən bir öncəki gün oxucularla görüşdən evə qayıdan şair Dilbər xanıma görə tələsdiyindən mənzili ətrafında dayanmış qara maşına fikir vermir. Mənzilə daxil olduqdan sonra Mikayıl Müşfiqi yaxınları ilə belə vidalaşmağa icazə vermirlər. 1938- ci il yanvarın 5-də keçirilən SSRİ Ali Məhkəməsinin 20 dəqiqəyə yekunlaşan məkhəmə iclasında Mikayıl Müşfiqin güllələnməsi ilə bağlı hökm verilir. Mikayıl Müşfiq bir neçə saatdan sonra yanvarın 6-ı güllələnir. Həyat yoldaşı Dilbər xanım belə qeyd edirdi ki, Müşfiq ölümünün son saniyəsinə qədər inanmayıb. Dilbər xanıma belə bildirirdi, "Sən narahat olma. Əvvəl-axır, tez ya gec hər şey aydınlaşacaq. Biləcəksiniz ki, bizim heç nədə təqsirimiz olmayıb..." [1, s.233].

Azərbaycan yazıçıları 20 il müddətdən sonra şairin yenidən işinə baxılması ilə bağlı müraciət ediblər. SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının qərarı ilə 1956-cı il mayın 23-də Mikayıl Müşfiqə tam bəraət alındı.

**Hüseyn Cavid.** 1882-ci il oktyabrın 24-də Naxçıvan şəhərində ruhani ailəsində anadan olan Hüseyn Cavid ədəbi yaradıcıllığa 14 yaşından başlasa da, 1904-cü ildə mətbuatda şair-dramaturq kimi çıxış edib. Üzvü olduğu Yazıçılar İttifaqında qələm yoldaşları tərəfindən "burjua yazıçısı", "müasir həyatı əks etdirməyən" şəxs kimi tanınırdı. Onun haqqında "Kommunist", "Gənc işçi" və "Bakınskiy raboçiy" qəzetlərində vaxtaşırı donoslar verilirdi. [1, s.36]

Müsavatçılarla əksinqilabı əlaqələr yaradıb, gənc şairləri müsavat tərəfə yönləndirməklə təqsirləndirilirdi. Şairin həbsinin yaxınlaşdığını hər kəsə aydın olduğu bir vaxtda Süleyman Rüstəm Cavidin tərəfində durmaqdan çəkinmir. [1,s.30]. Şairi Azərbaycan cinayət məcəlləsinin 72-73 cü maddələri ilə həbs edildi. Şairin evində axtarışların aparılması ilə bağlı 509 saylı "Order" yazıldı. 1939-cu ildə 8 il azadlıqdan məhrum edilən Hüseyn Cavid 1941-ci ildə Sibirdə sürgündə vəfat etdi.

1956-cı il 6 mart tarixində Azərbaycan SSRİ Ali Məhkəməsinin qərarı ilə Hüseyn Cavidə bəraət verilmişdir. 1982-ci ildə Naxçıvana səfər edən Ulu öndərimiz Heydər Əliyev şairimizin cənazəsinin qalıqlarını Vətəndən uzaq olan Sibirdən gətirilməsini bildirir. Bu məsuliyyətli iş Həmid Cəfərova həvalə edilir. İki saat axtarış gedən məzarlığın açılması ilə bağlı Şevçenko rayon prokuroru Yelena Xaritinova sanksiya imzalayır. Şairin cənazəsi Bakı hava limanında hörmətlə qarşılanır. Cavidin qızı Turan xanım da bu mərasimdə iştirak edir.1982-ci oktyabrın 26-da Hüseyn Cavidin nəşi Moskvadan Bakıya, sonra isə Naxçıvana gətirildi və həmin ilin 3 noyabr tarixində Naxçıvanda evinin qarşısında dəfn olundu. [5, s.211 ] Heydər Əliyev bir daha şairə bəraət vermişdir.

**Bəkir Çobanzadə.** Bəkir Çobanzadə 1893-cü il mayın 15-də Krımın Qarasubazar şəhərində anadan olur. O, çoban ailəsində dünyaya gəldiyi üçün 14 yaşına qədər çobanlıq edir.

Uşaqlıq illərində bir mollanın evində işləyərək ərəb dilini öyrənir və Quranla Şərq klassiklərinin əsərlərini oxumağa başlayır. İbtidai təhsilini kənddə başa vurduqdan sonra İstanbula oxumağa gedir. Türkiyədən qayıtdıqdan sonra Çobanzadə siyasi məsələlərə marağını verir. 1924-cü ildə Bakıya dəvət edilən Bəkir Çobanzadə Yeni Türk Əlifba Komitəsinə rəhbər təyin edilir. Bununla da Çobanzadənin sonrakı taleyi bəllli olur. Ciddi şəkildə elmi pedaqoji və ictimai məsələlər üzərində çalışan şair Azərbaycanda bir çox vəzifələrdə çalışır. Bəkir Çobanzadə türk xalqlarının birliyi və qarşılıqlı anlaşmasının, həmçinin əlaqələrinin genişlənməsinin əsas səbəbini ortaq əlifba və elmi terminologiyadan istifadə etməkdə görürdü. Bəkir Çobanzadəyə qarşı təzyiqlər 1930-cu ildə başlayaraq yeddi il davam etmişdir. Mənbələr göstərir ki, bu təzyiqlərin səbəbi onun Ruhulla Axundovla yaxın dostluğu olmuş ola bilər. Ehtimala görə, Mircəfər Bağırov Axundovu rəqib hesab edib və onu və yaxın çevrəsini aradan götürmüşdür.

Çobanzadənin Sovet İttifaqındakı əksinqilabçı, pantürkist təşkilatının rəhbərlərindən biri olmuşdur. Sovet hakimiyyətinə qarşı fəal mübarizə aparmışdır. Bütün bunlar aşkar edildikdən sonra Azərbaycan SSRİ-nin Cinayət Məcəlləsinin 60, 63 və 73-cü maddələrinə əsasən günahlandırılır və istintaq işi Hərbi Şuraya göndərilməli idi. Çobanzadə təqsirkar olduğunu, əksinqilabçı pantürk fəaliyyət göstərdiyini qəbul edir, bu mübarizədən imtina etdiyini bildirir. Lakin artıq hər şey çoxdan həll edildiyi üçün qəbul edilmir. Hökmün son hissəsi: "Hökm qətidir və 1 dekabr 1934-ci il tarixli SSRİ Mərkəzi İcraiyyə Komitəsinin qərarına əsasən dərhal yerinə yetirilməlidir" [5, s.152 ]. Bununla ağır cəzaya məhkum edildi. 1937-ci il 13 oktyabr edam olunan Çobanzadənin dəfn yeri məlum deyil.

Edam edildikdən sonra ailəsi “Vətən xaini” adı altında 8 il həbs edilir. Yoldaşı Ruqiyə Gieyevna 1955-ci il 13 dekabrda bəraət almışdır. B.Çobanzadənin bəraəti çox uzandı, bu proses Moskvada güllələnən R.Axundov və digər partiya xadimlərinin bəraətindən sonra yekunlaşdı [4, s.78]. Bəkir Çobanzadə 6 iyun 1955-ci ildə bəraət aldı.

**Əhməd Cavad:** Əhməd Cavad (1892–1937) Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri, istiqlal və azadlıq ideyalarının tərənnümçüsü olmuşdur. O, Gəncə qəzasının Seyfəli kəndində anadan olub, ilk savadını mollaxanada alıb, daha sonra Gəncə Müəllimlər Seminariyasında təhsilini davam etdirib. Ədəbi fəaliyyətə gənc yaşlarında başlayıb və 1916-cı ildə ilk şeirlər kitabı işıq üzü görüb. Onun yaradıcılığının əsas mövzuları vətən sevgisi, azadlıq arzusu və milli kimlik idi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə şairin əsərləri xüsusilə məşhurlaşdı, “Çırpınırdı Qara dəniz” şeiri türk dünyasının birliyini və istiqlal arzusunu ifadə edirdi. Əhməd Cavad həm də Azərbaycan Respublikasının dövlət himninin sözlərinin müəllifi olmuşdur ki, bu fakt onun yaradıcılığını milli tariximizdə daha da önəmli edir. Lakin sovet hakimiyyəti illərində milli və istiqlal ruhlu yaradıcılığı ona qarşı təzyiqlərin

artmasına səbəb oldu, şair "millətçi" və "pantürkist" adlandırıldı. Əhməd Cavad iclasda ona qarşı irəli sürülən haqsız ittihamlara dözə bilməyərək çıxış edir və S. Şamilovu vicdanlı olmağa, haqa riayət etməyə çağırır. Lakin sədr S. Vurğun şairin sözünü kəsir, məruzəçiyə haqq qazandırır və ona vicdan mövzusunda danışmağa icazə vermir. Nəticədə, Əhməd Cavad çıxışında özünü tikanlı və sərt suallardan qoruyaraq, haqlı olduğunu sübut etməyə çalışırdı. Əks təqdirdə, o, anasından, həyat yoldaşı Şükriyyədən, uşaqlarından və Yılmazından daimi olaraq ayrılacaqdı. Çıxışı zamanı sözünü tez-tez kəssələr də, atmacalar yönəltsələr də, şair sakitliyini qoruyur və suallara ehtiyatla cavab verirdi. Lakin plenumu idarə edənlər onun hər sözünü diqqətlə yoxlayaraq, şairi daha da təhlükəli vəziyyətə salmağa çalışırdılar.1937-ci ilin kütləvi repressiyaları zamanı o, həbs olundu və qondarma ittihamlarla 12 oktyabr 1937-ci ildə güllələndi. Hökm həmin gecə - 13 oktyabrda şair haqqında izahat verməyənlərdən biri olan görkəmli yazıçı Böyükağa Talıblının güllələnməsi ilə bir vaxtda həyata keçirilir [5, s.152].

Onun ailəsi də bu repressiyadan əziyyət çəkdi, həyat yoldaşı Şükriyyə xanım sürgün olundu, övladları isə ağır şərtlər altında böyümək məcburiyyətində qaldılar. Beləcə, böyük bir ədəbi irs yaradan, istiqlal ideyalarının daşıyıcısı olan Əhməd Cavad sovet totalitar rejiminin qurbanına çevrildi. Stalinin ölümündən sonra 1950-ci illərdə ona bəraət verildi və günahsız olduğu təsdiqləndi. Bu gün Əhməd Cavad xalqın yaddaşında istiqlal şairi kimi yaşayır, onun şeirləri isə gənc nəsillərə vətən sevgisi, milli qürur və azadlıq arzusu aşılayır.

**Yusif Vəzir Çəmənzəminli.** Yusif Vəzir Çəmənzəminli (1887–1951) Azərbaycan ədəbiyyatının tanınmış yazıçılarından biridir. O, həm roman və hekayələr, həm də pyeslər yazıb. Yaradıcılığında insan haqları, ədalət və milli azadlıq mövzularına çox yer verib. 1920-ci ildən sonra Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra repressiya, yəni ziyalılar və



Bakıdakı həbsxana divarları, 1930-cu illər
(Baku 1930-cu illər)

müstəqil fikrə sahib olan insanlar üzərində təzyiqlər başlandı. Bu dövrdə Yusif Vəzir Çəmənzəminli də diqqət mərkəzinə düşdü. Onun bəzi əsərləri senzura orqanları tərəfindən dərc olunmamaq üçün dayandırılırdı, çünki milli və ictimai mövzulara toxunurdu. 1930-cu illərdə repressiya daha da artdı. Çəmənzəminli bu dövrdə təzyiqlərə məruz qaldı, bəzən sosial və ictimai fəaliyyətlərdən uzaqlaşdırıldı. Həbs olunmasa da, onun həyatı və yaradıcılığı ciddi şəkildə çətinləşdi. Ailəsi və yaxınları da bu vəziyyətdən əziyyət çəkdi. Buna baxmayaraq, Yusif Vəzir Çəmənzəminli yazmağa davam etdi. Lakin o, əvvəllər açıq şəkildə yaza bildiyi milli və ictimai mövzuları artıq ehtiyatla işləyirdi. Onun əsərlərində bu dövrün verdiyi təzyiq və narahatlıq hiss olunur. Repressiya Çəmənzəminlinin yaradıcılığına mane olsa da, o, milli dəyərləri qorumağa çalışdı. Sonrakı illərdə bəzi əsərləri çap olundu və oxuculara çatdırıldı. Onun həyatı və yaradıcılığı 20-ci əsrin çətin dövründə Azərbaycan ziyalısının mübarizə ruhunu göstərir. Stalin dövründə təhlükəni hiss edən Yusif Vəzir Çəmənzəminli öz yazılarının böyük hissəsini yandırmaq məcburiyyətində qalır. 1937-ci ildə o, Azərbaycan Yazıçılar Birliyindən çıxarılır. 1938-ci ildə Özbəkistanda, Urgənc şəhərindəki Pedaqoji İnstitutda baş müəllim və kitabxananın müdiri olur. 1940-cı il yanvarın 25-də həbs olunur və Bakıya gətirilir. Təxminən

altı ay Keşlə həbsxanasında qalır, sonra iyulun 3-də Nijni Novqorod vilayətindəki həbs düşərgəsinə göndərilir. Azərbaycan ədəbiyyatında tarixi roman janrını yaradanlardan biri Yusif Vəzir Çəmənzəminli ağır həyat şəraitinə dözməyərək 1943-cü ilin yanvar ayının 26-da orada da dünyasını dəyişir [7, s.116]. 1956-cı ildə digər repressiya qurbanları kimi ona da bəraət verilir.

**Repressiyadan sonrakı dövr.** Repressiyaya məruz qalan sənətkarlarımızla bağlı bir çox romanlar, hekayələr, məqalələr, kitablar yazılmışdır. Bu dövrün işıqlandırılmasında mühacirətdə yaşayan Məmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağayev, Əhməd Cəfəroğlu, Əli bəy Hüseynzadə və digər şəxslər öz əsərlərində əvəzsiz rol oynamışdır. Məhəmməd Əmin Rəsulzadə ruslaşdırma siyasətinin acı fəlakətlərini açıq şəkildə göstərirdi. Sənət adamlarımızın qarşısına qoyulan əngəlləri dəlillərlə sübuta yetirirdi. "Həqiqətdə də, 1937-ci il təmizlənməsindən sonra nə məşhur yazıçılardan, nə görkəmli professor və müəllimlərdən, nə sevilən artistlərdən, nə də az-çox tanınan ictimai xadimlərdən kimsə meydanda qalmır" [7, s.101]**.** Mühacirətdə olan Mirzə bala Məmmədzadə dövrün materialları ilə ölkədə baş verən prosesləri dərindən təhlil etmişdir. Mirzə bala Məmmədzadə "Milli Azərbaycan hərəkatı" kitabında ermənilərin bu prosesdəki fəaliyyətini açıq şəkildə göstərmişdir. Müəllif göstərirdi ki, repressiya başlayandan bolşeviklərin əsas hədəfi ziyalı təbəqəmiz olmuşdur.

1920-1930-cu illərdə baş verən repressiyaları işıqlandıran təkcə mühacirətdə olan ziyalılarımız olmamışdır. Eyni zamanda daxildə yüksək vəzifədə olan adamlar tərəfindən də aparılmışdır. Nəriman Nərimanov və Eyyub Xanbudaqovu göstərə bilərik. Nərimanovun Leninə, Stalinə və oğluna yazdığı məktublar mövcud rejimə qarşı etiraz çıxışları idi. Biz "repressiya" sözünə ilk dəfə Nəriman Nərimanovun bu məşhur məktublarında rast gəlirik" Mən qəti olaraq repressiya əleyhinə idim, lakin bununla belə biz məscidləri gəzib qara camaatı dilə tuturduq ki, küçələrdə özlərinə işgəncə verməsinlər. Bir nəticəsi oldumu? Qəti surətdə bildirərəm ki, nəticəsi oldu" [6, s.42]. Nərimanov Firudun bəy Köçərlinin öldürülməsinin əleyhinə olmuşdur. S.Mehmandarovun, Ə,Şıxlınskinin qətlinə də mane olmuşdur. Milli adət-ənənələrə və dinə qarşı silah və zor gücünə mübarizənin əleyhinə olan N.Nərimanov yazırdı:"Dinə qarşı materialist kimi çıxış etmək bir şeydir. Bu mərasimləri qadağan etmək məqsədilə silahlı qüvvə tətbiq etmək başqa şey" [6, s.46].

AXC dövründə Nağı bəy Şeyxzamanlı Türkiyədə qələmə aldığı əsərlərində mövcud rejimi kəskin şəkildə tənqid edir, repressiyanı erməni-rus ittifaqının nəticəsi kimi dəyərləndirirdi. O bildirirdi ki, ermənilər bizə açıq şəkildə terror etmişdir. 1920-ci il Qızıl Ordunun işğallarından sonra Tiflisə gedən dövlət xadimlərimiz Tiflisdə yaşayan ermənilər tərəfindən qətlə yetirilmişdir. Bunlara Fətəli xan Xoylu, Xəlil bəy Xasməmmədov, Həsən bəy

aiddir. Nağı bəyin bu fəaliyyətləri SSRİ-nin diqqətindən kənarda qalmır. Belə ki, L.P.Beriya 1948-ci ildə Nağı bəyi SSRİ-yə dəvət etsə də, dəvətin əsas məqsədini anlayan Nağı bəy dəvəti qəbul etmir. Qəbul etdiyi təqdirdə Yusif vəzir Çəmənzəminlinin, Cəlil Məmmədquluzadənin taleyini yaşayacaqdı. SSRİ-nin keçərsiz vədləri ilə məhv ediləcəkdi.

Ruslaşdırma prosesinə kəskin etirazını bildirənlər sırasına Talıbovu da aid edə bilərik. Talıbovun çıxışları daha çox Azərbaycanın adət-ənənələrinin, tarixinin, mədəni irsinin qorunmasına yönəlmişdi. Talıbov AK(b)P-nin II qurultayındakı çıxışında Mərkəzi Komitənin üzvlərinin düzgün seçilmədiyini, bu şəxslərin Azərbaycan tarixi ilə bağlı məlumata sahib olmadıqlarını irəli sürürdü. O, AK(b)P-nin III qurultayında müstəqil Azərbaycanın müstəqil dilinin, ordusunun olmasını müdafiə edirdi.

Sovet dövründə repressiyaların nəticələri, qurbanları, tariximizə təsiri ilə bağlı məlumat əldə etməyə kifayət qədər material verir. Bu materiallar sənət adamlarımızın qoyduğu irsi, repressiyanın acı həqiqətlərini üzə çıxarmağa imkan verir.

**Nəticə.** Bir sözlə, XX əsrin 20–30-cu illərində Sovet hakimiyyəti zamanı Azərbaycanda bir çox alimlər və yazıçılar repressiyaya məruz qalmışdır. Bu insanlar cəmiyyət üçün dəyərli işlər görmüş, elmi və ədəbi sahədə böyük xidmətləri olmuşdur, amma ideoloji səbəblərdən təqib olunmuşlar. Məsələn, yazıçılar Mikayıl Müşfiq, Əhməd Cavad və Yusif Vəzir Çəmənzəminli, elmi xadimlərdən isə Bəkir Çobanzadə və Ruhulla Axundov bu dövrün qurbanı olmuşlar. Onların bir çoxu həbs olunmuş, sürgün edilmiş və ya güllələnmişdir. Repressiya nəticəsində həm onların həyatı, həm də yaradıcılığı zərər görmüşdür. Bir çox əsərlər itmiş, bəziləri isə uzun müddət çap olunmamışdır. Statistikaya görə, yalnız 1930–1938-ci illər arasında Azərbaycanda yüzlərlə ziyalı həbs edilmişdir. Bu dövr cəmiyyətin inkişafına da mənfi təsir göstərmişdir, çünki intellektual boşluq yaranmışdır. Buna baxmayaraq, repressiya qurbanlarının yaradıcılığı sonrakı nəsillər üçün dəyərli nümunə olaraq qalmışdır. Çoxları bəraət almış və əsərləri yenidən oxuculara çatdırılmışdır. Bu, göstərir ki, qorxu və təzyiq insanın ideya və biliyini tam məhv edə bilmir. Repressiya dövrü həm Azərbaycan tarixində ağır, həm də ziyalıların mübarizəsini göstərən bir dövr kimi qiymətləndirilir.

### Ədəbiyyat

1. Aslan K., (2011), XX əsrdə repressiyalara məruz qalanlar, Bakı, Azərnəşr, 2011, 296 s.
2. Azərbaycan Cümhuriyyəti, (1990), Bakı, Elm.
3. Figes O., (2014), Revolutionary Russia: A History in Documents, New York, Oxford University Press.
4. Qaraoğlu F. (2017), Bakı xəbər, 2017, 15 dekabr, s.13.

5. Qasımov C., (1998), Repressiyadan deportasiyaya doğru, Bakı, Mütərcim.
6. Qasımov C., (2020), Siyasi repressiya: həyatda və ədəbiyyatda, Bakı, Elm və təhsil, 2020, 508 s.
7. Nərimanov N., (1992), Ucqarlarda inqilabımızın tarixinə dair (tərtibçi akademik P. Əzizbəyova), Bakı, 1992, s.42.
8. Rəsulzadə M.Ə., (1991), Əsrimizin Səyavuşu; Çağdaş Azərbaycan Ədəbiyyatı; Çağdaş Azərbaycan tarixi, Bakı, Gənclik, 101s.
9. Rieber A.J., (2007), Stalin and the Soviet Repression, Cambridge, Cambridge University Press.
10. Volkogonov D., (1994), Lenin: A New Biography, New York, Free Press.

## ABOUT FAMOUS SCIENTISTS AND WRITERS WHO WERE VICTIMS OF REPRESSION

**A.A. Asadova**
Azerbaijan University, Jeyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Abstract.** After the establishment of Soviet power in Azerbaijan in the 1920s, extensive repressive measures were carried out in the country. During this period, people working in various fields, especially in culture and literature, became targets of repression. Many writers and poets were arrested, exiled or executed, which dealt a serious blow to Azerbaijan’s cultural life and hindered the development of literature. The Soviet authorities carried out repressions mainly for political and ideological reasons. Writers and poets were targeted when they expressed national ideas, created works that strengthened the consciousness of the people or touched upon topics that did not conform to Soviet ideology. During this period, freedom of speech in the press and literature was severely restricted.

**Keywords:** repression, Soviet period, Mikayil Mushfig, exile, imprisonment, historical tragedy.